XXI ƏSR İNTELLEKTUAL SİSTEMLƏR DÖVRÜDÜR

Adətən insanlar intellektual və mənən zəngin adamları Günəşə bənzədib onların dünyasına düşməyə can atırlar. Əlbəttə, bu, adamların yalançı büt yaratmaq istəyindən yox, mənən zənginləşmək ehtiyacından irəli gəlir. Görkəmli fransız sənətşünası Anri Perriyuşe dünyaşöhrətli rəssam Ogüst Renuarın şəxsi keyfiyyətlərindən söz açaraq yazır: "gözəl rəng duyumu olan Renuarda həm də qərbə bir maqnetizm vardı. Dünyaya rəssam-filosof prizması ilə baxan sənətkarla ünsiyyətdə olanlar elə ilk görüşdə onun cazibədar dünyasına düşüb mənən təmizlənib zənginləşirdilər".

Deyilənə görə, Albert Eynşteyndə də belə bir qeyri-adi xüsusiyyət olub. Gözəllik qanunlarına dayaqlanıb elmlə musiqinin harmoniyasını yaradan böyük alim yaxşı tanıdığı adamlarla həmişə səmimi münasibət saxlayıb və bu adamların yetişib formalaşmasına müsbət təsir göstərib. O ki qaldı bu dahinin qeyri-adiliklərinə, sözsüz ki, onun qeyri-adiliklərindən də yaxşı mənada bəhrələnənlər olub.

Zamanəmizin dahi alimi, professor Lütfi Zadə bütün dünyada bir ömürdə on beş elmi nəzəriyyənin müəllifi kimi tanınır. Nəzəriyyələrinda riyaziyyata, məntiqə və fəlsəfəyə söykənən alim dünyaya da həmin nəzərlərlə baxır. Elə buna görə də onun dünyası müəyyən mənada ibrətamizdir.

—Elmi nəzəriyyələrinizin Yaponiyada, Cənubi Koreyada, Sinqapurda, eləcə də dünyanın yüksək inkişaf etmiş onlarca ölkəsində geniş tətbiqi böyük möcüzələr yaradıb. Qərbədir, bu möcüzələr fonunda çoxları sizi qeyri-adi, fövqəl bir adam görümündə təsəvvür edirlər. Bəs, əslində siz kimsiniz professor Lütfi Zadə?

—Mən bu dünyada mövcud olan milyonlarla adamlardan biriyəm. Özü də Amerikaya kənar sivilizasiyalardan yox, Şərq ölkəsindən gəlmişəm. Daha dəqiq desək, tərəf vətənim Azərbaycan, onun paytaxtı Bakıdır. Uşaqlığım Bakıdakı Asiya küçəsindəki evimizdə (bu küçə sovet dövründə P.Montin, indi isə Ə.Quliyev adlanır) keçib. Atam Rəhim Ələsgərzadə yüksək təhsil almışdı. Əvvəllər "İran" qəzetinin Bakı təmsilçisi idi. Sonralar taleyini xarici ticarətə bağladı. Anam həkim-psixoloq idi. Özü də işi başından aşırdı. Bu səbəbdən də bütün işləri özüm təkbaşına görürdüm. Mən şəkil çəkməyi çox sevirdim. Başqa uşaqlardan fərqli olaraq qapalı idim. Onlar kimi papiros çəkməyi, qız dalınca qaçmağı xoşlamırdım. Təhsilə, elmi araşdırmalar aparmağa böyük maraq göstərirdim. Buna görə də fasiləsiz olaraq kitab oxuyurdum. Hələ o vaxtlar insana oxşar maşınlar düzəltmək haqqında fikirləşirdim. Jül Vernin fantastik əsərlərini oxuduqca düşündüyümün nə vaxtsa reallaşacağına məndə böyük ümid yaranırdı.

—Sizin uşaqlıq dövrünüzün müəyyən hissəsi Bakıyla, müəyyən hissəsi isə Tehranla bağlıdır. Daha dəqiq desək, məktəbə ilk addımlarınızı Bakıda və Tehranda atmısınız. Həmin anları müasir zaman məsafəsində necə xatırlayırsınız?

—Mən Bakıda valideynlərimlə yaşayarkən ibtidai məktəbin üçüncü sinfini qurtardım. Otuzuncu illərin əvvəllərində İrana gələndən sonra valideynlərim məni,kilsə nəzdində fəaliyyət göstərən ingilis təmayüllü "Alborz" adlı xüsusi məktəbə qoydular. Həmin məktəblə Bakıdakı sovet məktəbi arasında böyük fərq vardı. Mən bir qədər burada oxuduqdan sonra İran məktəbinə keçdim. Qəbul olunmuş qaydaya görə mən İran məktəbinin 6-cı sinfini mütləq qurtarmalı idim. İki-üç ay İran məktəbində oxuyub təhsilimi tamamladım. Beləliklə, mən başqa şəraitdə təhsil aldım. Bu məktəbdə dərs fars dilində aparılırdı. Bununla yanaşı, bir neçə kurs ingiliscə keçirilirdi. Həmin məktəb çox yaxşı məktəb idi. Ona görə yaxşı idi ki, mən ilk dəfə bu məktəb vasitəsi ilə Amerika xalqı, Amerika mədəniyyəti barədə məlumat alırdım. Sonra mən Tehran Universitetinə qəbul olundum. Və bakalavr dərəcəsi ilə təhsilimi başa vurdum. O vaxtlar İranda din həlledici rol oynamırdı. Bizim təhsil aldığımız Tehran Universitetində yalnız bir nəfər, sonralar baş nazir olan professor Bozarqan dindar idi.

—Professor, yüksək təhsil görmüş bir adamın bir ölkədən başqa ölkəyə mühaciret etməsinin obyektiv səbəbləri olur. Yəqin ki, sizin İrandan Amerikaya mühaciret etməyiniz də səbəbsiz deyildir?

—Bəli, Amerikaya mühaciret etməyimin obyektiv səbəbləri vardı. Əsas səbəblərdən birisi o idi ki, həmin dövrlərdə İran mənim elm sahəsində maraqlarımı təmin edən əlverişli yer deyildi. Elə buna görə də mən 1944-cü ildə Amerika Birləşmiş Ştatlarına üz tutdum.

—Mühacirləri dünyanın heç bir yerində gül-çiçəklə qarşılamırlar. Əksinə, hər şeyə sıfırdan başlayan mühacirlər böyük çətinliklərlə üzləşirlər. Yəqin ki, Amerikaya gələndə siz də belə çətinliklərdən yan keçməmisiniz?

—Bilirsinizmi, Amerikada olmayanlar, amerikalıları yaxşı tanıyanlar onlardan çox şey umurlar. Amerikada olmayana qədər mən özüm də bu fikirdə olmuşam. Amma gəlib bu mühiti görəndən sonra dərk etdim ki, özün-özünü qurmalısan və yaşamaq uğrunda sözün heqiqi mənasında mübarizə aparmalısan. İlk gündən bu reallığı dərk etdiyim üçün mən öz işlərimə rasional yanaşmışam. Var gücümü toplayıb Massaçusets Texnologiya İnstitutuna qəbul olunmuşam. Sonra yolum Nyu-Yorka düşüb. Buradakı elektrik birliyində işə düzəlmişəm. 1944-cü ilin sentyabrında Bostona üz tutmuşam. 1947-ci ildə valideynlərim Amerikaya gəlib Nyu-Yorkda məskunlaşdılar. Onda mən Kolumbiya Universitetində mühəndis işləyirdim. Eyni zamanda həm müəllim, həm tələbə idim. Çalışırdım ki, valideynlərimə yaxın olum, onlara əl tutum. Nə isə, 1948-ci ildə mən Kolumbiya Universitetində elektron mühəndisliyi sahəsində bakalavr dərəcəsi aldım. Bir az sonra, yeni 1957-ci ildə mənə tam professor dərəcəsi verdilər. 1959-cu ildə Berklidəki Kaliforniya Universitetinə gəldim. Təzə iş yerində bir az əziyyət çəkdim. Amma son nəticədə Kaliforniyaya gəldiyim üçün sevindim. Ona görə sevindim ki, bu universitetdə həm yaxşı alimlər işləyirdi, həm də ciddi elmi araşdırmalar aparmaq üçün şərait vardı.

—Sizinlə söhbətlərimiz zamanı hiss etdim ki, fenomenal yaddaşa malıksiniz. Bunu nəzərə alıb ixtiyar çağınızda Bakı həyatınızla bağlı xatirələrinizi dinləmək istərdim...

—Mən Bakını tərk edəndə 10 yaşım vardı. Yay vaxtı ailəmizlə birlikdə Kislovodsk və Mineralnıye Vodı şəhərlərinə istirahətə gedərdik. Hətta mən o vaxtlar Moskvaya da səhayət etmişdim. Bakı bulvarını da yaxşı xatırlayıram. Mən 1965-ci ildə Bakıda olarkən adamların ciddi dəyişdiyi faktı ilə qarşılaşdım. Vaxtile yaşadığım yerdə qohumlarımın məskunlaşdığının şahidi oldum. Mənə çox xoşdur ki, əvvəllər xoşuma gələnləri yaddaşımda bərpa edib canlandırdım. Hətta mən Buzovna çimərliyini də xatırlayıram. Bir sözlə, Bakı ilə əlaqədar yaddaşımda çox yaxşı xatirələr qalıb.

Bir də o yadımdadır ki, biz İrana yola düşməzdən bir il əvvəl Bakıda iqtisadi vəziyyət pisləşməyə başladı. Çörək üçün növbə indi də yadımdadır.

—Bakıda hansı məktəbdə oxuduğunuzu necə, xatırlayırsınızmı?

—Mən məktəbin adını dəqiq xatırlaya bilmirəm. Amma bir o yadımdadır ki, məktəb rus məktəbi idi. Mövcud qaydaya görə türkcə danışılmırdı. Sovet məktəbindən yadımda qalanlardan biri də odur ki, bu məktəblərdə özünü dövlət naminə qurban vermək tələn edilirdi.

—Siz Amerika barədə, Amerikada olmaq haqqında ilk dəfə nə vaxt düşünməyə başlamısınız?

—Mən Bakıda olarkən bu barədə heç vaxt düşünməmişəm. Bu barədə yalnız Bakını tərk edib ingilis təmayüllü kollecdə təhsil alanda fikirləşmişəm.

—Sizin dinə münasibətiniz necədir?

—Bakıda sovet məktəbində təhsil alarkən dindar olmaq ağlasığmaz bir şey idi. Amma İranda ingilis təmayüllü kollecdə oxuyarkən mən İslam dini ilə tanış oldum. Hətta bu kollecdə oxuyarkən biz hər gün namaz qılırdıq. Amma mənim İslam dini barədə o qədər də böyük təəssüratım yoxdur. Ona görə ki, o vaxtlar İranda İslam indiki kimi güclü deyildi.

Beləliklə, dediyim kimi, din mənim həyatımda o qədər də böyük yer tutmayıb. Amma mən onun deyərlərinə böyük hörmətlə yanaşıram. Mən Amerikaya gələndə kilsə ətrafında birləşmiş bir neçə dini qrup üzvləri ilə tanış olmuşdum. Yaxşı adamlardı. Amma bütün bunlara baxmayaraq, mən özümü dindar adlandıra bilmərəm. Atam da, anam da, arvadım da dindar olmayıbdır. Buna baxmayaraq, dinə etiqad edənlərə hörmətimi həmişə qoruyub saxlamışam.

—Xoşbəxtliklə əlaqədar müxtəlif fikirlər mövcuddur. Bu məsələyə yazıçı və şairlər bir cür, filosof və psixoloqlar başqa cür yanaşırlar. Bu məsələdə dünyanın ən böyük aliminin fikrini bilmək bizim üçün daha maraqlıdır...

—Qərbə məndən soruşsalar ki, öz işimlə məşğul olmağa heyfsilənirəmmi, o saat cavab verib deyərdim: Xeyr!

Soruşsaydılar ki, bura gəlməyimə peşmanammı, yenə cavab verib deyərdim: Xeyr! Soruşsaydılar ki, arvadımla evlənməyimə təəssüflənirəmmi, əlbəttə, yenə deyərdim ki, xeyr! Beləliklə, bu məsələlərə münasibətdə, demək olar ki, mən xoşbəxtəm.

Mənim həyatım, güzəranım yaxşı olub, çoxlu dost qazanmışam. Təminatım ələdir. Yaxşı övladlarım, hörmətim var. Amma bütün bunlara baxmayaraq, adamın nəyi ise çatışmır. O, sürətlə ötüb keçən illərə heyfsilənir. Düşünür ki, birdən sağlamlığı pisləşər, nəyi ise çatdıra bilməz.

—Həyat yoldaşınız və uşaqlarınız haqqında nə deyə bilərsiniz?

—Həyat yoldaşım Faina yüksək təhsilə malikdir. Onunla 1946-cı ildə evlənmişik. 1947-ci ildə bir qızımız oldu. Üç ildən sonra, yeni 1950-ci ildə oğlumuz dünyaya gəldi. Övladlarım uşaqlıqlarını Los-Ancelesdə keçiriblər. Oğlum Nərman hələ evlənməyib. Qızım Sitarə isə ərdədir. O ixtisasca jurnalistdir.

Əvvəllər televiziyada işləyirdi, sonra özünün agentliyini açdı, hazırda televiziyada prodüsser işləyir. Qızım öz sahəsində müəyyən məşhurluğa malikdir. Oğlum Berklidə əməliyyat tədqiqi sahəsində çalışırdı. Sonra o İBM-də işlədi. Amma ora onun xoşuna gəlmədi, çıxıb getdi. Mən onunla çox ciddi danışıb dedim ki, belə etmə. Di gəl, mənə qulaq asmadı. O, simpleks metodu və xətti proqramlaşdırma ilə bağlı bir neçə elmi məqalə yazdı. Bəzi vaxtlar aksiya bazarı sahəsinə də diqqət yetirdi. Aksiyaların inkişaf artımı uğrunda mübarizə apardı. Hazırda o maliyyə meneceridir və öz işində xeyli uğur qazanıb.

—Həyatın enişləri, yoxuşları çox olur. Siz praktiki olaraq belə enişlərlə, yoxuşlarla çox üzləşmisiniz. Təbii ki, dünyaşöhrətli alim olandan sonra bütün işləriniz yaxşılığa doğru yön alıb?

—Bəzən həyat yaxşılaşdığı kimi, pis də ola bilər. Adətən bir işdən başqa işə keçəndə belə olur. Ola bilsin ki, yeni iş yerində yüksək maaş, şərait mövcuddur. Di gəl, bununla bərabər sən yeni kollektivdə bəzi şeyləri, məsələn, uyarlı, səmimi münasibəti, xoşuna gələn şəraiti itirəsən. Bir sözlə, bunları sadalamaqda onu demək istəyirəm ki, hərtərəfli yaxşılaşma nisbidir.

—Özünüzü xoşbəxt hesab edirsinizmi?

—Xoşbəxtlik haqqında elə-belə danışmaq mümkün deyil. O situasiyadan asılıdır. Ola bilsin ki, bir adamın hər şeyi var və o xoşbəxt görünsün. Amma ondan xoşbəxt olduğunu soruşanda desin ki, xoşbəxt deyil. Əgər məndən soruşsalar ki, xoşbəxtsənmi, cavab verib deyərdim: Yox! Bədbəxtsənmi? Yenə yox!

Həmişə insanı nə ise xoşbəxt edir. Bəzən hadisələr, bəzən situasiyalar. Ola bilsin ki, kimi ise görəsiniz və özünüzü xoşbəxt hiss edəsiniz. Və yaxud ürəyinizə yatan nəyi ise alıb xoşbəxtlik hissi keçirəsiniz. Əlbəttə, hər bir adam xoşbəxtliyi müxtəlif cür başa düşür. Bir də görürsən ki, biri yaxşı yatdığına görə, başqa birisi tamam başqa şeyə görə özünü xoşbəxtik zirvəsində hiss edir. Mən özümü ciddi xəstəliyim aşkar edilməsinə baxmayaraq, doktor olanda xoşbəxt hiss etmişəm.

—Bir vaxtlar iyirminci yüzilliyi elmi inqilablar əsri adlandırırdılar. İndi isə deyirlər, biz iki inqilabın qovuşğundayıq. Bunlar yeni əsri böyütmək xatirinə işlənmiş sözlərdir, yoxsa əsrin reallıqlarıdır?

—Bəli, biz iki inqilabın qovuşğundayıq. Birincisi, informasiya inqilabıdır. Bu inqilab nəticəsində beynəlxalq kompüter şəbəkəsi—İNTERNET yaranmışdır.

İkinci inqilab intellektual sistemlərdəki inqilabdır. Həmin inqilabın nəticəsində işə intellektual robotlar, intellektuallaşdırılmış idarəetmə sistemləri, qeyri-səlis sistemlər yaradılmışdır.

—Dünya və ədədlər... Bunlar arasında nə əlaqə görürsünüz? Mürəkkəb təbiət hadisələri və hissələr adi ədədlərdə necə əks oluna bilər?

—Bu məqsədlə indekslərdən istifadə olunur. İndekslər həmin göstəricilari qiymətləndirməyə imkan verir. Mövcud vəziyyət üçün qeyri-səlis məntiq, mümkünlük nəzəriyyəsi və s. tətbiq edilir.

—Axırıncı dəfə nə vaxt məzuniyyətdə olmusunuz?

—Mən 1959-cu ildə Berkliyə, yəni Kaliforniya Universitetinə gəldiyim vaxtdan məzuniyyətdə olmamışam. Beynəlxalq elmi konfranslarda iştirak etmək mənim üçün ən yaxşı məzuniyyətdir. Mən arvadımla Nevadada konfransda olmuşam. Bu mənim üçün ən yaxşı məzuniyyət idi. Yaxşı şəhərlərə, yaxşı adamlarla görüşlər mənim üçün ən əla məzuniyyətdir. Dortmunda, Zigendə, Visbadendə belə olub.

—Özünüzdən razısınızmı?

—Mən deyə bilmərəm ki, müştəbəhəm, özümdən razıyam. Məndə belə hisslər yoxdur. Amma gərəndə ki, mənim bəzi ideyalarım başqa adamlar tərəfindən haradasa qəbul edilir, sevinirəm. Təkrar edirəm, məndə müştəbəhlik yoxdur. Konfranslara gedəndə bəzi təmtəraqlar gözləməkdən uzağam.

—Siz səfərə çıxmağı xoşlayırsınızmı?

—Mən uzunmüddətli səfərləri xoşlamıram. Evdə olmağı xoşlayıram...

—Yemək mənasibətiniz?

—Mən yeməklə o qədər də maraqlanmıram. Buterbrodla da özümü ovundura bilərəm.

—Bir ömürdə on beş elmi nəzəriyyə hələ heç bir alimə nəsib olmayıb. Amma siz dünyada məşhur olan on beş elmi nəzəriyyənin müəllifisiniz. Deyə bilərsinizmi sizin ilk kəşfiniz nə vaxt doğuldu?

—Bir daha təkrar edirəm: mən insana oxşayan maşınlar barədə çoxdan düşünürdüm. Bu cür suallar mənim üçün həmişə maraqlı idi. Elə buna görə də 1961-ci ildə məqalə yazdım. Həmin məqalədə mən bizə qeyri-səlis riyaziyyat yaratmaq lazım olduğunu söylədim. Amma o vaxt bunu necə etmək barədə təsəvvürüm yox idi. Mən bunu 1963-cü ildə bir az yaxşı başa düşməyə başladım. İlk işim 1964-cü ildə yarandı. Amma o həmin il yox, yalnız 1965-ci ildə çap edildi.

—İlk işinizi yazanda onun dünya miqyaslı kəşf olduğunu bilib sevinc hissi keçirirdinizmi?

—Mən bu işi yazanda onun gərəkli olacağını bilirdim. Amma iş elə getirdi ki, həmin elmi nəzəriyyə mənim gözlədiklərimdən də artıq gərəkli oldu.

—Bunu özünüz üçün xoşbəxtlik hesab edirsinizmi?

—Elə məqamlar olub ki, mən linqvistik dəyişmələr anlayışını dərk etmək məcburiyyətində qalmışam. Deyə bilmərəm və hiss etməmişəm ki, məndə nə ise çox vacib bir şey baş verib. Amma fəhmlə anlamışam ki, nə ise gərəkli bir şey etmişəm.

—Nəyə görə Amerikada sizin nəzəriyyənizi qəbul etmədilər?

—Bu elə-belə məsələ deyil. Bu məsələnin bir çox tərəfləri var. Qeyri-səlis çoxluqlar nəzəriyyəsi klassik nəzəriyyəyə nisbətən düzbucaqlıdır. Elə buna görə də çoxları həmin nəzəriyyəyə maraq göstərmədilər. Amma elələri də vardı ki, mənim ideyalarımı bəyənib müdafiə etdilər. Bununla yanaşı, "qeyri-səlis" sözü ingilis dilində başqa bir mənə daşıdığına görə elmi işlərdə işlədilmir. Mən bilirdim ki, "qeyri-səlis" sözünü işlətməyim etiraz doğuracaq.

İlk elmi məqaləmi yazan dövrlərdə mənim vəziyyətim çox yaxşı idi. Mən Berklidəki Kaliforniya Universitetində şöbə müdiri idim. İşim başımdan aşırdı. Həmin elmi məqalə burada da birmənalı qarşılanmamışdı. Ona tənqidi münasibət bəsləyənlər çox idi. Amma bu məni məyus etmirdi. Bilirdim ki, elmi yeniliklər heç vaxt o saat qəbul olunmur. Praktik tətbiqini tapana qədər uzun dolanbac yollar keçmək məcburiyyətində qalır.

—Deyə bilərsinizmi niyə Amerika və Avropa ölkələri sizin nəzəriyyənizə etinasızlıq yanaşıblar, amma Şərq ölkələri o saat qəbul edib istehsalatda tətbiqinə başlayıblar?

—Bu həmin ölkə xalqlarının düşünmə və qavrama vərdişləri ilə əlaqədardır. Bildiyimiz kimi, amerikalılar və avropalılar dəqiq düşünmə tərzi, Şərq ölkələri xalqları isə qeyri-səlis düşünmə vərdişləri ilə xarakterizə olunurlar. Elə buna görə də mənim nəzəriyyələrim ilk öncə Şərq ölkələrində, sonra ise Avropa ölkələrində öz tətbiqini tapmağa başladı.

—Bəs necə oldu ki, çətinliklə öz praktik tətbiqini tapan bu nəzəriyyə Yaponiya kimi bir ölkənin ən yüksək mükafatına—Hondo və Okava mükafatlarına layiq görüldü?

—Müəyyən mənada mühafizəkar olan, çox şeyi özünə yaxın buraxmayan Yaponiyanı elmi kəşflərin iqtisadi səmərəsi maraqlandırır. Onların alimləri, sənayeçiləri mənim elmi kəşflimlə tanış olandan sonra onlarda belə iqtisadi səmərənin olacağına böyük inam yarandı. Beləliklə, Yaponiya sənayesində qeyri-səlis çoxluqlar, qeyri-səlis məntiq sistemləri möhkəmləndi və qəbul edildi. Və yaponlar ağlasığmaz iqtisadi gəlir əldə edib məni Hondo və Okava mükafatları ilə mükafatlandırdılar.

—Sizin qeyri-səlis məntiq nəzəriyyənizə baxış birmənalı deyil. Onu hərə öz anlamında dərk edib qavrayır. Bəs bu nəzəriyyəyə sizin öz münasibətiniz necədir?

—Mənim fikrimcə, qeyri-səlis məntiq anlayışını birmənalı başa düşmək olmaz. Ona görə ki, bu anlayış müxtəlif mənalar kəsb edir. Onun həm geniş, həm də məhdud mənə çalarları vardır. Qeyri-səlis məntiqin məhdud mənasında birmənalı məntiqin hidrolizasiyası kimi görünən məntiqi sistem mövcuddur. Əlbəttə, bu mənim nöqteyi-nəzərimdir. Digər nöqteyi-nəzərdən bu, demək olar ki, elə çoxluqlar nəzəriyyəsinin özüdür. Çoxluqlar nəzəriyyəsinin digər mənası onun çoxmənalılığıdır, demək, məhdud mənə deyil. Bu müəyyən mənada ekvivalent nəzəriyyədir.

—Siz dünya elmində inqilab etmisiniz. Daha dəqiq desək, qeyri-səlis çoxluqlar, qeyri-səlis məntiq nəzəriyyələrinizin kəşfindən sonra bütün elm sahələrinin mənzərəsini dəyişdirmisiniz. Artıq klassik "Fizika" "Qeyri-səlis fizika"ya, klassik "Cəbr" "Qeyri-səlis cəbr"ə çevrilib. ABŞ və Avropa ölkələrində, demək olar ki, bütün dərsliklər öz ilkinliklərini itirib qeyri-səlis mahiyyət kəsb edirlər. Deyin görək, dünya miqyasında bu boyda nəhəng işi görməkdə siz hansı şəxsi keyfiyyətləriniz kömək edibdir?

—Açığını deyəcəm. Mənim bu işləri görməyimə, reallaşdırmağıma, həyata keçirməyimə türk əməksəverliyim və türk inadkarlığım yardımçı olubdur.

—Siz aza qane olmağı xoşlayırsınız, yoxsa çoxa?

—Mən elə adam deyiləm ki, aza qane olmayam. Biz həmişə sadə yaşamışıq. Mənə beş televizor, beş maşın yox, yaşayıb işləmək üçün normal mənzil, həyat şəraiti lazımdır.

—Siz maddi, yoxsa mənəvi cəhətdən zənginləşməyi xoşlayırsınız?

—Mən hər hansı gördüyü işlər müqabilində maddi cəhətdən zənginləşməyə, mükafat almağa can atan adamlardan deyiləm. Mənim maraqlarım kitablarla, məqalələrlə, jurnallarla məhdudlaşır.

—İnsanlarda daha çox hansı xüsusiyyətləri qiymətləndirirsiniz?

—İnsanlarda xeyirxahlığı, düzgünlüyü xoşlayıram. Mənim etibarlı, xeyirxah dostlardan xoşum gəlir. Elə adamlar var ki, səninlə müəyyən məqsədlərə çatmaq üçün dostluq edir. Bu baxımdan Şərq xalqları ilə amerikalıları müqayisə etmək olmaz. Bakıda olan dostluq münasibətlərini mən Amerikada görməmişəm. Bakıda elə dostlar var ki, səni bütün məqamlarda görüb kömək əli uzada bilər. Belə şeylər Amerikada qəbul olunmayıb. Amerikada bir neçə dostluq növü mövcuddur. Əsasən münasibətləri vəziyyət özü diktə edib tənzimləyir. Amma bir şeyi də deyim ki, bu münasibətlərdə əltutma və mehribanlıq çatışmır.

—Tutduğu mövqedən, vəzifədən asılı olmayaraq hərə bir şeyə maraq göstərir. Daha dəqiq desək, hərənin bir hobbisi olur. Mənim sizin foto hobbinizdən xəbərim vardır. Amma evinizdə, çalışdığınız universitetin yaxınlığındakı restoranlar kompleksində olanda sizin portretinizlə, tərcümeyi-halınızla yanaşı, Amerika prezidentləri Trumenin, Ruzveltin, Niksonun, dünyaşöhrətli alim və sənətçilərdən Belmanın, Kolmoqorovun, Rastropoviçin, Qalina Vişnevskayanın, keçmiş Rusiyanın siyasi xadimi Kerenskinin sərgilənmiş portretlərini gördüm. Bu portretlər sizin hobbinizdən çox peşəkarlığınızdan xəbər verirdi. Sizin bu hobbiniz nə vaxtdan başlayıb?

—Kiçik yaşlarımdan, hələ mən Bakıda yaşayanda foto ilə məşğul olmaq xoşuma gəlirdi. Amma Təhranda yaşayarkən foto ilə daha ciddi məşğul olmağa başladım. 60-cı illərdə professional fotoaparat əldə etdikdən sonra foto mənim daimi hobbimə çevrildi. Bununla bərabər, mən foto lentləri aşkarlamaqla, şəkilləri böyüdüb çap etdirməklə məşğul oldum. Evimdə fotolaboratoriyam var. Amma indiki vəziyyətdə mən ondan istifadə etmirəm.

Mən foto ilə yaxından məşğul olanda məşhur alimləri, riyaziyyatçıları, pianoçuları çəkməyi xoşlayırdım. Mənim evimin holunda Trumenin, Rastropoviçin portretləri asılmışdır. Onlar həmişə mənə böyük xoş duyğu hissi yaradır.

Çəkdiyim fotolara maraq göstərənlər çoxdur. Bəzən özümün də xəbərim olmadan onları kitabların üz qabıqlarında çap edirlər. Kerenski haqqında Amerikada nəşr olunmuş monumental kitabın üz qabığında verilmiş foto mənimkidir. Bunu mən kitab çıxandan sonra bilmişəm.

Öncə dedim ki, fotolarıma maraq göstərənlər çoxdur. Buna görə də tez-tez mənə müraciətlər olur. Bir dəfə Tailand kafesinin xahişi ilə üç-dörd fotomu onlara verdim. İlk sərgi-reklamdan sonra onları oradan oğurladılar. Beləliklə, mən dörd yaxşı fotomu itirdim. Lakin onların məndə nəqativləri qalıbdır.

Onların nəqativlərinin qorunub saxlanmasına baxmayaraq, mən onları aşkarlamağa, çıxarmağa çalışmıram. Və ona görə də bu unikal fotoları heç kim görməyib. Əksər fotoların yüksək peşəkarlıqla hazırlanıb. Açığını deyim ki, yalnız peşəkar fotoqraflar bu keyfiyyətdə şəkil çəkə bilərlər.

—Deyəsən qorseyls də əsas hobbilərinizdən biridir?

—Qorseyls-qəzetdə məlumat, bəzi adamlara gərəkli olmayan şeyləri satmağa çalışanlar üçün çox maraqlıdır. Qorseyls bir növ ovu xatırladır. Adamlar özlərinə lazım olmayan əşyaları satmaq axtarışında olurlar. Mən həmişə axtarışda olmağı xoşlayıram.

—Siz kibernetikanın patriarxı Norbert Vinerlə ünsiyyətdə olmusunuz. Bir alim kimi formalaşmağınızda onun təsirini hiss etmisinizmi?

—Müharibə qurtarana kimi Vineri tanımırdım. Amerikada ikinci ali məktəbi bitirdikdən sonra onunla əlaqə yaratdım. Hərdən onun yanına gedib müxtəlif suallarla müraciət edirdim. O, çox nüfuzedici adam idi. Bununla yanaşı, unutqanlığı da vardı. Çox vaxt o əvvəllər gördüyü hadisələri xatırlaya bilmirdi. Bir professor kimi heddən ziyada ciddi və tələbkar idi. O hər dəfə auditoriyaya girəndə lövhəyə sualları yazıb bizi yoxlayırdı.

Viner mənim üçün heddən ziyada intellektual və çox inkişaf etmiş bir adam idi. O həm də gözəl mühaziraçı kimi yadımda qalıb. Çox təəssüf ki, o vaxtlar mən onun mühazirələrini yazmamışam. Əgər bilsəm ki, kimdəsə onun mühazirələrinin maqnitofon yazısı var, sevinərəm.

O ki qaldı onun mənə təsiri məsələsinə, bəli, bu böyük alim mənə çox böyük təsir göstərib. Ən böyük təsiri elmi araşdırmalara olan marağımı görüb məni həmin istiqamətə yönəltməsidir.

—Siz Norbert Vinerlə görüşəndə kibernetikanın perspektivlərini görürdünüzmü?

—Onun nəzəriyyəsini başa düşmək çox çətin idi. Bununla yanaşı, Vinerin nəzəriyyəsi son nəzəriyyə deyildi. O vaxtlar Şənonun rəqəmli nəzəriyyəsi daha populyar idi. Demək olar ki, bu iki nəzəriyyə arasında rəqabət gedirdi. Mənə belə gəlirdi ki, gələcək Norbert Viner nəzəriyyəsinin yox, rəqəmli nəzəriyyənindir.

—Bəs özünüzün qeyri-səlis məntiq nəzəriyyənizin müasir tətbiq dairəsi ilə əlaqədar nə deyə bilərsiniz?

—Qeyri-səlis məntiqin tətbiq dairəsi ilə əlaqədar onu deyə bilərəm ki, o Yaponiyada, Cənubi Koreyada, Sinqapurda və ən iqtisadi cəhətdən yüksək inkişaf etmiş başqa ölkələrdə geniş tətbiqini tapıb. Artıq Çin Xalq Respublikasında da bu nəzəriyyənin tətbiqinə başlayıblar.

Bir sözlə, bu nəzəriyyənin tətbiq dairəsi olduqca genişdir. Artıq o nəinki kimya, biologiya, təbabət elmlərinə, hətta riyaziyyat və təbiət elmlərinə də böyük təsir göstərib onları tamamilə yeniləşdirməyə başlamışdır.

—Bütün zamanlarda dünyanın qlobal problemləri olub. Bu problemlərin həllini hərə bir şeydə görüb. Bəziləri mövcud problemlərin həllini ədəbiyyatda, bəziləri isə elmdə axtarıblar. Dünyaşöhrətli bir alim kimi sizin bu məsələyə münasibətiniz necədir?

—Dünyanın qlobal problemlərini ədəbiyyatın həll edəcəyi fikir absurddur. Estetik zövq mənbəyi olan ədəbiyyat indiyə qədər dünyanın heç bir qlobal problemini həll etməyib və bundan sonra da etməyəcək. Bir sözlə, problemlərin həllini ədəbiyyatın ümidinə qoyub ondan rasional nəticə gözləmək ağlasığmazdır. Mövcud problemlər zaman-zaman böyük elmin köməkliyi ilə həll edilib və bundan sonra da belə olacaq. Yeri gəlmişkən, xatırladım ki, XXI əsr intellektual sistemlər dövrüdür. Həmin dövrdə dünya intellektual robotlar, intellektuallaşdırılmış idarəetmə sistemləri və qeyri-səlis sistemlər vasitəsi ilə tənzimlənəcəkdir.

—Siz Azərbaycandan ötən əsrin otuzuncu illərin əvvəllərində çıxmısınız. İndiyə qədər tək bircə dəfə - 1965-ci ildə ilk elmî kəşfinizi edən çağlarda Bakıda olmusunuz. Bir sutkalıq çəkən həmin görüşdən sonra bir daha tarixi vətəninizə dönməmisiniz. Amma bütün bunlara baxmayaraq, "Uzaq və yaxın Lütfi Zadə" çoxseriyalı sənədli filmin (1998) nümayişindən sonra sizə hədsiz sevgi yaranıb. Hamı sizi görmək həsrətindədir. Deyin görək bir daha Azərbaycanla görüşmək fikriniz varmı?

—Azərbaycan sevgisi mənim ürəyimdə, qanımda, genlərimdədir. Görünür, görüşə bilməsək də, xalq bunu uzaqdan-uzağa sezib duyur. Xalqım tərəfindən qəbul edilib sevildiyim üçün şərəf və qürur duyuram. O ki qaldı tarixi vətənim Azərbaycanla yenidən görüşməyə...sözün düzü, bu bir qədər qəliz işdir. Çünki bunun məndən asılı olmayan bir çox obyektiv səbəbləri var.

—Deyirlər arzu arzudan doğur. Əgər bu həqiqətən belədirsə, onda deyin görək ömrünüzün bu müdrik çağında daha nə kimi arzularınız var?

—Mənim heç vaxt bu və ya başqa mavi arzularım olmayıb. Amma elə bir sual var ki, siz onu mənə vermədiniz. Təəvvür edin ki, siz sehrkarsınız və məni sehrə salıb 20 yaşım olan çağlara qaytarmısınız. Mən özlüyümdə müəyyənləşdirməyə çalışıram ki, buna öz razılığımı verərdimmi? Əlbəttə, bələ olduqda mən yenidən təhsil almalı, iş axtarmalı və başqa işlərlə məşğul olmalıydım. Mən bilmirəm ki, gələcək mənim üçün nə hazırlayır. İstərdim ki, indi mənim nə qədər yaşım var elə də qalsın. Və mən heç nə uğrunda bir daha mübarizə aparmayım...

* * *

Dünyaşöhrətli sənətçilərlə, alimlərlə bağlı adamların özlərinə məxsus qəribə təəvvürləri olur. Onlar uzaqdan-uzağa əsərləri və elmi kəşfləri ilə tanıdıqları bu adamları reallıqdan uzaq təəvvür edib gah ideallaşdırır, gah da bütləşdirirlər. Amma bir şeyi xatırladaq ki, nəhəng görümdə gördüyümüz bu adamlar real dünyanın real adi adamlarıdır. Onları belə ezəmətli, əlçatmaz göstərən yalnız gördükləri nəhəng, ibrətamiz işlər və bir də bizdən fərqli olaraq bizim bu dünyada göra bilmədiklərimizi görmələridir. Lap elə zəngin elmi, məəsvi dünyasına daxil olduğumuz professor Lütfi Zadə kimi.

Möhbəddin SƏMƏD.

Bakı–Berkli–San-Fransisko–Bakı.